Kredo 2019.- 30 may.- S.14.

# "Əllərimdə tale yazım"




Pedaqoq-alim Allahverdi Eminovun şair, yazıçı-publisist Kamal Alışoğlunun yaradıcılığından bəhs edən "Əllərimdə tale yazım" ("Təknur", 2018) adlı mo-noqrafiya-esse Əli Mohəmmədnianın fars qrafikasına çevirməsi ilə 2019-cu ildə Tehranda nəşr olunmuşdur. Kitabın İranda fars əlifbası ilə çap olunub yayımlan-masının təşəbbüskarı isə Tehranda nəşr olunan "Xudafərin" jurnalının baş redak-toru doktor Hüseyn Şərqidərəcək Soy-türkdür.

Kitabda müəllif şair, yazıçı-publisist Kamal Alış oğlu İbadovun həyatı ilə ilgili məlumatları da yeri gəldikcə təqdim edir ki, bu da yazarın həm də kimliyi barədə oxucuları məlumatlandırmaq baxımından dəyərli informasiyalar verir. Amma bu zaman müəllif K.Alışoğlunun tərcümeyi-halını quru dillə, rəsmi olaraq təqdim edib, yorucu hal yaratmır. A.Eminov bu tanıtmanı maraqlı publisistik bir üslubda və özü də bir neçə istiqamətdən təqdim edir. Belə ki Allahverdi müəllim bir vaxtlar onunla bir kollektivdə işlə-diklərindən, Kamal müəllimi necə tanı-dığını şahidi olduğu hadisələr əsasında təqdim edir. Bu da oxucuda maraqlı təsir oyadır. İkinci bir tərəfdən A.Eminov şair, yazıçı-publisisti onun yaradıcılığını təhlil etdiyi məqamda həyatı ilə ilgili məqam-larını açıb ortaya qoyur. Bu da tədqiqatçı kimi yazarın həyatını öz yazdıqları tale yazılarından oxuyub üzə çıxarmaq mə-harətini göstərir. Eyni zamanda bəzən də elə olur ki, Kamal İbadovun hansı şeirləri nə zaman yazdığının şahidi olduğunu və nə münasibətlə yazıldığını bildiyi üçün açıb izah edir. Bu da şairin həyatı və yaradıcılığını müəllifin yaxından bilib-tanımasına dəlalət edən amil kimi maraq doğurur.

Bütün bunlarla bahəm Allahverdi Emi-nov kitabın bir bölməsini şairlə dialoqa həsr edib. Bu zaman ona ünvanladığı suallar içindən şairin həyata, poeziyaya münasibətləri bəlli olur ki, məhz bu fakt da yaradıcı insanın poetik dünyası ilə bağlı tale-yaşam yolunu birbaşa açıb gös-tərir. Məsələn, "Şeirdə rəngdnədir, sim-voldur, yoxsa həqiqət?" sualına verilən cavabı məncə eşitmək çox maraqlıdır:

- Poeziya duyğu və hisslərin zən-ginliyindən yaranır. Şeirin sirri ondadır ki, o kitabdan yox, təbiətin özündən, həyatdan bəhrələnir. Bədii düşüncə hə-yatın ruhu, canıdır. Şeir isə bu düşüncənin xoş təbəssümü, sürətlə dəyişən duyğu-ların rəngarəngliyidir:

*Bircə bu qış çıxsaydı dərdimiz azalardı,*
*Havalar isinərdi, günəşli yaz olardı.*
*Ağaclar çiçəkləyər, çəmənlər güllənərdi,*
*Qəlbimiz fərəhlənər, arzular dillənərdi.*
*Ruhumuzu təzələr quşların civiltisi,*
*Qəlbimizə yayılar torağayın nəğməsi.*
*Gedərdik meşələrə, təbiətin qoynuna,*
*Baxardıq Turacların "məhəbbət" oyununa,*
*Görərdik kol dibindən necə çıxır bənövşə,*
*Niyə boynu bükükdür, qəmli olur həmişə.*

Kim qışın sərt "üzünü" gördükcə onun tez ötüb kecməsini arzulamır? Təbiətin oyanan vaxtını, baharın gəlməsini səbir-sizliklə gözləmir? Palıdın, ulasın (və-lə-sin) tər yarpaqlarının ətri, müxtəlif quşların bir-birini səsləməsinin ahəngini, simfoniyasını eşitmək, dinləmək və bütün bunları, bu rəngarəngliyi duymaq, şeirə çevirmək - təbiətin əsrarəngiz lövhələrini görüb seyr etmək şair üçün misralarla, sözlərlə bəzədilmiş rəsm əsəri deyilmi?

*Zirvələr göylərin yeddi qatında,*
*Dərələr min arşın quyu kimidir.*
*Çəmənlər qızların cehiz xalçası,*
*Sular da dirilik suyu kimidir."*

Məncə, şairin öz publisistik danışığı ilə poetik örnəklərinin burada müvazi verilməsi oxucunu birbaşa şairin daxili aləmi ilə (və həm də tərcümeyi-halı ilə) tanış etmək baxımından maraqlı material verir.

Bax bu minvalla Allahverdi Eminov şair, yazıçı-publisist K.Alışoğlunun əllərindən oxunan tale yazısının bir falçı-rəmmal kimi bizlərə də açdırıb oxutdurur.

Monoqrafiya-essenin son hissəsində isə şairin şeir yaradıcılığından on-on iki poeziya örnəyinin təqdim olunması özü də bir yandan şairin "əllərindəki tale yazısını"-könlündə döyünən poetik ritmləri duymaq baxımından xüsusi təsirə malikdir.

Pedaqoq-alim Allahverdi Eminovun qələmində təqdim olunan K.Alışoğlunun əllərindəki tale yazısının İranda nəşr olunması isə hər bir halda Azərbaycan aliminin və həm də yazarının geniş miq-yasda yayımlanması kimi qəbul edilmə-lidir. Belə bir missiyanı gerçəkləşdirən Əli Mohəmmədnianın və "Xudafərin" jurnalının baş redaktoru Hüseyn Şər-qidərəcək Soytürkün fədakarlıqlarını isə yüksək qiymətləndirir və çox sağ olsunlar deyirəm.

**Şakir SSLİFOĞLU**

